AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

NAİLƏ ƏLİ QIZI ASLANOVA

# AMERİKA VƏ AZƏRBAYCAN ROMANTİZMİNDƏ ŞƏXSİYYƏT KONSEPSİYASI (HERMAN MELVILL VƏ CƏFƏR CABBARLININ YARADICILIĞI ƏSASINDA)

5718.01 – Dünya ədəbiyyatı (ingilis ədəbiyyatı)

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2014

İş Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya üzrə elmlər doktoru, professor Zeydulla Abdulla oğlu Ağayev |
| Rəsmi opponentlər: | filologiya üzrə elmlər doktoru, professor Əsgər Məmməd oğlu Zeynalov |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent Səkinəxanım Fazil qızı Vəliyeva |
| Aparıcı təşkilat: | Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrası |

Müdafiə __22_____02____ 2014-cü il saat _______ Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küç., 60.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____________________________ 2014-cü ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru, dosent Sevda Davud qızı Vahabova

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Müasir dünyamızda vüsət alan qloballaşma və onun xüsusi təzahür formaları olan mədəniyyət, ədəbiyyat və incəsənətin inteqrasiyası milli ədəbiyyatların qarşılıqlı bədii tarixi yaradıcılıq əlaqələrinin vəhdətdə öyrənilməsini müasir dövrün aktual məsələlərindən birinə çevirmişdir. Ayrı-ayrı yazıçılar və əsərlər deyil, müəyyən epoxaları əhatə edən ədəbi cərəyanlar və bu kontekstdə bu cərəyana mənsub sənətkarların yaradıcılığının ümumdünya ədəbi prosesi kontekstində tədqiqi çətin olduğu qədər, zəruri və faydalıdır. Yalnız coğrafi trayektoriya baxımdan deyil, eləcə də təşəkkül tapdığı epoxa fərqləri ilə seçilən Amerika və Azərbaycan romantizminin özünəməxsus xarakterləri, xüsusiyyətləri və orijinallığı vardır. Fəqət şərti desək “gecikmiş” Azərbaycan romantizminin estetik prinsipləri ilə Amerika romantizmi arasında məhz şəxsiyyət konsepsiyası baxımından oxşar cəhətlər belə bir elmi araşdırmanın aparılmasına zərurət yaradır.

Bu gün artıq söhbət sadəcə ədəbi əlaqələrdən, ən yaxşı halda qarşılıqlı ədəbi təsirdən yox, paralel təmaslardan gedir və bu mövzunu xeyli aktuallaşdırır. Təsadüfi deyildir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasında respublikamızın ziyalıları ilə görüşündə demişdir ki, “Azərbaycan rəhbərliyinin siyasətinin elmi əsasını təşkil edən humanitar elmlərin başlıca vəzifəsi dünya təcrübəsinin hərtərəfli öyrənilməsi və ümumiləşdirilməsi, dövlətimizin siyasi, iqtisadi, sosial və dini sahələrdə ictimai inkişafının əsas qanunauyğunluqlarının müəyyən olunmasından ibarətdir”[1].

Keçən əsrin məlum metodoloji kanon və qadağaları bu əlaqələri obyektiv dəyərləndirmədən uzaq salmışdır. Romantizm haqqında bir çox tədqiqatlar aparılsa da, onun Azərbaycan və Amerika zəmini, bunlar arasında paralellər, nəhayət, Cəfər Cabbarlı və Herman Melvill kimi kamil qələm sahiblərinin romantik aləmi xüsusi tədqiqat obyekti olaraq kompleks şəkildə öyrənilməmişdir. Belə bir problemi araşdırmaq, elmi mülahizələri ümumiləşdirmək və məntiqi nəticələr çıxarmaq özlüyündə aktuallıq kəsb edir.

ABŞ və Azərbaycanın sosio-mədəni həyatında romantizm cərəyanı müxtəlif zamanlarda təzahür etsə də oxşar sosial-ideoloji problemləri əks etdirir. Romantizm cərəyanı ABŞ və Azərbaycanda

[1] “Azərbaycan” qəz., 1993, № 185 (697).

kəskin ictimai-siyasi hadisələrin müşayiəti fonunda inkişaf etmişdir. Amerikada rasizmə qarşı və quldarlığın ləğvi uğrunda ölkənin cənub və şimal ştatları arasında yaranmış münaqişələr vətəndaş müharibəsinə səbəb olmuş, irqçilik siyasəti nəticəsində yerli hindu tayfalarına qarşı soyqırım əməliyyatları, zəncilərə qarşi alçaldıcı rəftar ictimai-siyasi həyatda qarşıdurmalar yaratmışdır.

Analoji olaraq, müstəmləkəçi Rusiya tərəfindən ilhaq edilmiş Şimali Azərbaycanda çar istibdadının dərinləşməsi, milli və dini ayrı-seçkilik, zəhmətkeş xalqın istismarı, milli-mənəvi dəyərlərimizə edilən həmlələr, bütün bunlara sipər ola biləcək vətənpərvər ziyalı və sənət fədailərini istiqlal mücadiləsinə gətirib çıxarırdı. Bu zərurətdən çıxış edən romantizm cərəyanının görkəmli nümayəndələri olan Herman Melvill və Cəfər Cabbarlı öz şəxsiyyət konsepsiyalarında o zamankı ictimai-siyasi və ədəbi-bədii fikrin qarşılaşdığı problemlərə münasibətlərinin ifadəçisi olan lirik-romantik qəhrəmanların estetik tərbiyəsi haqqında mühakimələr irəli sürmüşdülər.

Əsasən yaradıcılığının realist məqamları tədqiqata cəlb edilən Cəfər Cabbarlının Herman Melvill ilə birgə tədqiqat obyekti seçilməsi təsadüfi deyildir. C.Cabbarlı Azərbaycanda romantizmin son nümayəndələrindən biri kimi yaradıcılığının sonrakı mərhələsində realizm ədəbi cərəyanının ənənələrindən çıxış edir. Analoji olaraq H.Melvill də Amerika romantizminin son nümayəndəsi kimi əsərlərində romantizm və realizm cərəyanları arasında keçilməz sədd qoymur, sərhədləri mütləqləşdirmir, ədəbi metodların inteqrativ əlaqələrini əks etdirir. Bununla yanaşı, romantizmin hər iki nümayəndəsi mənsub olduqları milli mədəniyyətin özünəməxsusluqlarından çıxış edərək, yaşadıqları ölkənin kəskin ictimai-siyasi hadisələrini əsərlərində ustalıqla, bilavasitə və bilvasitə tənqid etmək üslubuna görə oxşardırlar. İstər Melvill, istərsə də Cabbarlı yaradıcılığında çoxsaylı romantik qəhrəman tipləri, mürəkkəb xarakterlər yaratmaq, öz dövrlərinin ideal şəxsiyyət tiplərinin romantik-bədii ifadəsi səciyyəvidir.

Yuxarıda deyilənlər romantizm cərəyanının görkəmli nümayəndələri olan Herman Melvill və Cəfər Cabbarlı yaradıcılığının çağdaş nəzəri metodoloji prinsiplər əsasında yeni baxış müstəvisindən tədqiqi zərurətini aktuallaşdırır.

*Tədqiqatın obyekti və predmeti.* Tədqiqat işinin obyektini Amerika və Azərbaycan romantizminin görkəmli nümayəndələri olan Herman Melvill və Cəfər Cabbarlının və romantik fikrin zəngin ədəbi-bədii irsi

təşkil edir. Bu məqsədlə dissertasiyada filoloji, ədəbi, bədii, publisist və s. aspektdə yazılmış əsərlər, monoqrafik araşdırmalar və problematik məqalələr tədqiqata cəlb edilmişdir.

Herman Melvill və Cəfər Cabbarlının romantizmində ədəbi qəhrəmanların etik və estetik təkamülünü araşdırmaq, Amerika və Azərbaycan romantizmində şəxsiyyət konsepsiyasını XX əsrin əvvəllərindəki tarixi şərait kontekstində, bədii fikrin ümumbəşəri və milli-mədəni prosesləri fonunda öyrənmək tədqiqatın predmetini təşkil edir.

*Mövzunun işlənmə dərəcəsi.* Amerika ədəbiyyatı Azərbaycan elmi-ədəbi mühitində həmişə ciddi maraq doğurmuşdur. Belə bir əlaqə müstəvisində hər iki xalqın ədəbiyyatı arasında ideya bədii əlaqələrin tarixi haqqında geniş bəhs etmək, çoxsaylı faktları sadalamaq mümkündür. Herman Melvillin əsərləri bir sıra dünya xalqlarının dillərinə tərcümə olunaraq öz oxucularını tapmışdır. Lakin ədibin "Mobi-Dik"[2] adlı romanından (tərcümə Kamran Nəzirlinindir) başqa heç bir əsəri Azərbaycan dilinə tərcümə edilməmişdir. Bununla yanaşı onun yaradıcılığı haqqında yalnız icmal xarakterli məqalələrdə, ensiklopedik nəşrlərdə və xarici ölkələr ədəbiyyatı ilə bağlı dərsliklərdə məlumata rast gəlmək mümkündür. Xarici və keçmiş rus-sovet ədəbiyyatşünaslığında isə daha ciddi elmi tədqiqat əsərləri yazılmışdır. Tanınmış tədqiqatçılardan Apenko E.M., Bataşin A., Bereznak M.A., Bobrova M.N., Zasurskiy Y.N., Zverev A.M.[3] və başqaları Herman Melvillin yaradıcılığına xas bir sıra problemlər haqqında elmi araşdırmalar aparmışlar. Melvill yaradıcılığı əsas etibarilə ingilis və Amerika tədqiqatçıları tərəfindən öyrənilmişdir. Anderson C.R., Bellis P.J., Bender

[2] Melvill H.. Mobi-Dik yaxud Ağ Balina. Bakı: Şərq-Qərb, 2011, 608 s.

[3] Апенко Е.М. История зарубежной литературы XIX века. М.: Наука, 2001, 213 с.; Баташин А. Океан в мифах и легендах. Владивосток: Дальневосточное книжное изд-во, 1973, 180 s.; Березняк М.А. Роль художественной детали в создании трагического характера: (на мат. романа Г.Мелвилла "Моби Дик"). Пермь: 1986, с. 28-36; Боброва М.Н. Романтизм в американской литературе XIX в. М: Высшая школа, 1972, 218 с.; Засурский Я.Н. Романтические традиции американской литературы XIX в. М.: Наука, 1982, 345 с.; Зверев А.М. Романтические тенденции американской литературы XIX века и современность. М.: Наука, 1982, 432 с.

B., Dillingham W.B., Gidmark J.D., Gilman W.H., Greenberg R.M., Lawrence D.H., Levine R.S., Lyons P.Mc., Carthy P., Reynolds D.S., Rosenberry E.H., Thompson L., Tolchin N.L., Hart A., Short B.C., Williams J.B.[4] Melvill irsinin müxtəlif səpgilərini tədqiqat obyektinə gətirmiş və əhatəli şəkildə öyrənmişlər.

*Tədqiqatın məqsəd və vəzifələri.* Dissertasiya işinin əsas məqsədi Amerika və Azərbaycan romantizminin tipoloji təhlilini aparmaqla onun görkəmli nümayəndələri olan Herman Melvill və Cəfər Cabbarlının yaradıcılığında şəxsiyyət konsepsiyasının sistemli təhlilini verməkdən

---

[4] Anderson C.R. Melville in the South Seas. N.Y.: Columbia Univ. Press, 1977, 632 p.; Bellis P.J. No mysteries out of ourselves: Identity and textual form in the novels of Herman Melville. Philadelphia, 1990, 222 p.; Bender B. Sea-brothers: The tradition of American sea fiction from "Moby-Dick" to the present. Philadelphia, 1988, 570 p. Dillingham W.B. An artist in the rigging: the earlwork of Herman Melville. Athens: University of Georgia Press, 1972, 437 p. Gidmark J.D. Melville sea dictionary: a glossed concordance and analysis of the sea language in Melville's nautical novels. Westport, London: Greenwood Press, 1982, 534 p.; Gilman W.H. Melville's early life and Redburn. N.Y.: N.Y University Press, 1972, 210 p.; Greenberg R.M. Splintered worlds: Fragmentation and the ideal of diversity in the work of Emerson, Melville, Whitman, and Dickinson. Boston, 1993, 610 p.; Lawrence D.H. Herman Melville's Typee and Omoo // Melville H.A Collection of Critical Essays. Ed. by R. Chase. Englewood Cliffs, 1962, 540 p.; Levine R.S. Conspiracy and romance: Studies in Brockden Brown, Cooper, Hawthorne, and Melville. Cambridge etc.: Cambridge Univ. Press, 1989, 700 p.; Lyons P. Melville and his precursors: Styles as metastyle and allusion // Amer. lit. Durham, 1990, v. 62, N 3, p. 445-463; McCarthy P. The twisted mind: Madness in Herman Melville's fiction. Iowa City, 1990, 340 p.; Reynolds D.S. Beneath the American Renaissance: The subversive imagination in the age of Emerson and Melville. N.Y.: 1988, 440 p.; Rosenberry E.H. Melville and the coic spirit. Cambridge: Harvard University Press, 1955. 352 p.; Thompson L. Melville's quarrel with God. Princeton (NJ): Princeton University Press, 1966, 640 p.; Tolchin N.L. Mourning, gender, and creativity in the art of Herman Melville. New Haven; L.: Yale Univ. Press, 1988. 470 p.; Hart A. Melville and Spinoza // Studia Spinozana. Wurzburg, 1989, v. 5, p. 43-58; Short B.C. Cast by means of figures: Herman Melville's rhetorical development. Amherst, 1993, 340 p.; Williams J.B. White fire: The influence of Emerson on Melville. Long Beach, 1991, 640 p.

ibarətdir. İşin məqsədinə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

- ABŞ və Azərbaycanda romantizm cərəyanını meydana gətirən milli əxlaqi-psixoloji və mədəni-mənəvi amilləri müəyyənləşdirmək;
- ABŞ və Azərbaycan romantizminin sosial-mədəni gerçəkliyin bədii-poetik mənimsənilmə vasitəsi kimi onun estetik-romantik idealını tədqiq etmək;
- Romantizmin görkəmli nümayəndələri Herman Melvillin və Cəfər Cabbarlının yaradıcılığında şəxsiyyət probleminin konseptual həllinə diqqət yetirmək;
- H.Mevill və C.Cabbarlı yaradıcılığında ideal və sosial gerçəklik məsələlərini araşdırmaq.

*Tədqiqatın elmi yeniliyi.* Tədqiqatın elmi yeniliyi problemin ilk dəfə sistemli, kompleks şəkildə araşdırılmasından ibarətdir.

- Dissertasiyada ABŞ və Azərbaycan romantizminin problematikası, sosial-mədəni fikrin inkişaf meyilləri dialektik vəhdətdə təhlil edilir;
- Romantizm cərəyanında insan və sosium problemləri ilk dəfə olaraq Herman Melvillin və Cəfər Cabbarlının yardıcılığı kontekstində ilk dəfə sistemli tədqiq edilir;
- Romantizm bütöv, vahid ideya cərəyanı kimi araşdırılır;
- Romantizmdə insan taleyinin müəllif mən-ində ifadəsinə diqqət yetirilmişdir;
- H.Melvill və C.Cabbarlı yaradıcılığında şəxsiyyətin etik-estetik təkamülü izlənilmişdir;
- Romantizm cərəyanının ABŞ və Azərbaycandakı təzahürünə xas olan milli cəhətlərin kəsişən məqamları və paralelləri öyrənilmişdir;

*Tədqiqatın metodoloji əsası.* Dissertasiya işinin nəzəri və metodoloji əsasını tarixilik, varislik, məntiqilik, sistemlilik, hermenevtik və müqayisəli təhlil prinsipləri təşkil edir. Herman Melvill və Cəfər Cabbarlı kimi zaman və məkan fərqi olan müxtəlif mədəniyyətlərə məxsus yazıçıların ideya mövqelərinin yaxınlığı, onların bədii yaradıcılıq xüsusiyyətləri diqqət mərkəzinə çəkilmişdir. Dissertasiyada Amerika və Azərbaycan klassiklərinin, habelə müasir ədəbi fikrin elmi-nəzəri qənaətlərindən, mövzu ilə bağlı tədqiqat müəlliflərinin fikir və mülahizələrindən, analoji araşdırmaların nəticələrindən istifadə edilmişdir.

*Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.* Dissertasiya işi nəzəri yanaşma və araşdırma üsulları baxımından sonrakı dövrün tədqiqatları üçün

elmi-nəzəri və praktik əhəmiyyət daşıyır. Araşdırmaların nəticələrindən Azərbaycan-Amerika ədəbi əlaqələrinin tədqiqində, şəxsiyyət və cəmiyyət, sosial reallıq və romantik ideal, özgələşmə və s. problemlərin nəzəri məsələlərilə məşğul olan tədqiqatçılar istifadə edə bilər. Dissertasiyada tədqiq və şərh edilən problemlər ali məktəblərdə Amerika ədəbiyyatı üzrə mühazirələrin hazırlanmasında, Azərbaycan və Dünya ədəbiyyatı tarixi, Ədəbiyyat nəzəriyyəsi və digər fənlərin tədrisində əhəmiyyətli rol oynaya bilər. Herman Melvillin və Cəfər Cabbarlının yaradıcılıq yoluna nəzər salan sonrakı tədqiqatçılar üçün istinad obyektinə çevrilə və problemin daha əsaslı öyrənilməsinə zəmin ola bilər. Nəhayət, dissertasiya materialları tələbələr, aspirantlar, müəllimlər, həmçinin bu mövzu ilə maraqlanan tədqiqatçı və geniş oxucu kütləsi tərəfindən istifadə edilə bilər.

*Tədqiqatın fərziyyəsi.* Müasir elmi-nəzəri fikrin müəyyənləşdirdiyi metod və üsullar əsasən Amerika və Azərbaycan romantizminin görkəmli nümayəndələri H.Melvillin və C.Cabbarlının şəxsiyyət konsepsiyasında ümumi oxşar cəhətləri və paralelləri aşkar etmək olar. Amerika və Azərbaycan romantizmi ictimai-mədəni gerçəkliyin bədii-poetik mənimsənilməsi vasitəsi kimi mövcud olduğu dövrün tarixi şəraiti haqqında zəngin material verir. H.Melvillin və C.Cabbarlının yaradıcılığı kontekstində romantik şəxsiyyət konsepsiyasının nəzəri problematikasını hərtərəfli araşdırmaq, məğzini qavramaq mümkündür.

*Müdafiəyə çıxarılan müddəalar.* Tədqiqat işində müdafiəyə aşağıdakı nəzəri müddəalar çıxarılır:

- Herman Melvill və Cəfər Cabbarlının romantizmində ədəbi qəhrəmanların etik və estetik təkamülünü araşdırmaq;
- Amerika və Azərbaycan romantizmində şəxsiyyət kosepsiyasını XX əsrin əvvəllərindəki tarixi şərait kontekstində, bədii fikrin ümumbəşəri və milli-mədəni prosesləri fonunda öyrənmək;
- Amerika və Azərbaycan romantizmində kəsişən məqamları və paralelləri müəyyənləşdirmək;
- ABŞ və Azərbaycan romantizmində bədii xarakterlərin milli özünəməxsusluğu və oxşar cəhətlərini izləmək;
- Herman Melvill və Cəfər Cabbarlının romantizmində şəxsiyyət və cəmiyyət, sosial gerçəklik və utopiya problemini araşdırmaq;

*Dissertasiyanın aprobasiyası.* Tədqiqat işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında hazırlanmış,

müzakirə edilmiş və müdafiəyə tövsiyə edilmişdir. Tədqiqatın əsas məzmunu müəllifin çap olunmuş məqalə və tezislərində əksini tapmışdır. Dissertasiya işində irəli sürülən müəyyən mülahizələr elmi-praktiki konfransda məruzə olunmuşdur.

*Dissertasiyanın quruluşu.* Dissertasiya işi giriş, iki fəsil, altı yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın *Giriş* hissəsində mövzunun aktuallığı və əhəmiyyəti əsaslandırılmış, problemin işlənmə dərəcəsi müəyyənləşdirilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilmiş, aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

Tədqiqat işinin *«Amerika və Azərbaycan romantizmi və onları formalaşdıran sosial tarixi şərait»* adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. *"ABŞ ədəbiyyatında romantizmin təşəkkülü"* adlanan birinci yarımfəsildə Amerika romantizminin başlıca xüsusiyyətləri, ideya mənbələri, problematikası, sosial-siyasi ideyaların bədii ədəbiyyata yol tapması kimi məsələlərə diqqət yetirilir. Məlum olduğu kimi, XIX əsrin 30-40-cı illərində ABŞ ictimai-siyasi həyatında gərginlik yüksək həddə çatmış, ictimai fikirdə aktivlik və əhalinin sosiallaşması prosesi başlamışdı. Azadlıq müharibələri (1775-1783) yeni tipli burjua demokratik respublikasının yaranması ilə nəticələndi. Demokratik respublika kimi həm insan haqları haqqında ilk deklarasiyanı imzalaması, həm də inqilabi hərəkatın hərəkətverici qüvvəsinin rəngarəngliyi baxımından ABŞ Avropada sosial-siyasi hərəkatların stimullaşdırıcı örnəyi oldu.

Romantizm cərəyanının, demək olar ki, bütün nümayəndələri sosial gerçəklikdən narazı, siyasi proseslərə biganə olmayan vətənpərvər insanlar idi. Bu səbəbdən Amerika romantiklərinin real gerçəklikdən narazılıqları bədii, fəlsəfi, etik, estetik, hətta ictimai-siyasi səpgilərdə ifadə olunurdu. Mövcud sosial-siyasi problemlər bədii yaradıcılığa sirayət edərək mövzuların seçilməsində, bədii qəhrəmanların yaşantılarında tərənnüm olunurdu. Romantiklər ideal cəmiyyət utopiyalarında daha əlverişli siyasi idarəetmə proqramı irəli sürürdülər. Romantik utopiya real cizgilərdən təcrid olunmuş, tarixi keçmişdən götürülmüş nümunələrə əsaslanırdı. Vaşinqton İrvinq XVIII əsr müstəmləkəçilərini idealizə edir və patriarxal Amerikanın utopik obrazını tərənnüm edirdi. Fenimor Kuper

və Herman Melvillin sosial utopiyaları qeyri-sivil Sakit okean xalqlarının və hindu tayfalarının həyat tərzinə uyğunlaşdırılmışdı. Edqar Po isə ali intellekti, fövqəl ağlı mədh edirdi.

Tədqiqatçılar Amerika romantizminin intişarının üç mərhələdən keçdiyini qeyd edirlər. Birinci mərhələ ilkin Amerika romantizminin (1820-1830-cu illər) nümayəndələri V.İrvinq, C.F.Kuper, U.K.Brayent, D.P.Kennedi öz yaradıcılıqlarında bəzi hallarda maarifçilik ənənələrindən istifadə edirdilər. Bu dövrdə romantiklərin görkəmli simaları İrvinq və Kuper Amerikanın ictimai-siyası həyatında fəal iştirak edir, ideoloji hədəflərin müəyyənləşməsinə təsir göstərirdilər. Erkən romantiklər yüksək idealların, sosial utopiyaların böhrana uğramasından, əxlaqi-mənəvi dəyərlərin yaşamaq uğrunda mübarizənin "qurbanına" çevrilməsi səbəbindən bədbinləşsələr də, qiyamçı və üsyankar əhval-ruhiyyədən əl çəkmirdilər. Onlar burjua cəmiyyətinin alternativ variantını arayır və romantik sosial utopiyalar irəli sürürdülər. V.İrvinqin (Washington İrving) "Preriyaya səyahət" ("A Tour on the Prairie"), ölkənin patriarxal keçmişindən bəhs edən "Nyu-Yorkun tarixi" ("History of New York"), orta əsrlər Avropasının tarixini ideallaşdıran "Alhambra trilogiyası" ("Tales of Alhambra"), F.Kuperin "Casus" (The Spy), dəniz romanları sosial-siyasi ideyaların əks olunduğu əsərlərdəndir.

Amerika romantizminin ikinci dövrü yetkin Amerika romantizmi (1840-1850-ci illər) adlanır. Bu dövrdə ədəbiyyat N.Hotorn, H.B.Stou, E.A.Po, H.Melvil, H.U.Lonqfello, U.H.Simms, R.U.Emerson və H.D.Toronun simasında inkişaf edir. Amerika gerçəkliyinin mürəkkəb və ziddiyyətli hadisə və prosesləri 40-50-ci illərdə romantiklərin nəzəri-estetik görüşlərində büruzə olunur. Respublika 1830-cu illərdə iqtisadi böhran keçirir, korrupsioner hökümətin daxili və xarici siyasətindəki konfliktlərə görə dövlətə etimadı itirirdilər. Romantik yaradıcılıqda gerçəklik və romantik ideallar arasındakı ziddiyyətlərin kəskinləşməsi ümidsizlik və inamsızlıq yaradırdı, qeyri mükəmməl dünya və insan qavramı (N.Hotorn), kədərli əhval-ruhiyyə (E.Po), insan varlığındakı faciəviliyin dərki (H.Melvill) aydın təcəssümünü tapır.

Son dövr Amerika romantizminin məşhur simaları, Emerson, Toro, Lonqfello, Louell, Holms, Hotorn, Melvill, Uitmen, Po, Biçer-Stou və digərləri özlərindən sonra estetik fikir tarixində yeni ədəbi janr, yaradıcılıq üslubu, istiqamət qoymuşdular. Son dövr romantikləri tərəfindən nağıl, povest, tarixi roman nəzəri cəhətdən əsaslandırıldı, estetik parametrləri müəyyənləşdi, bədii ədəbiyyat fəlsəfi problematika əxs etmiş oldu. Məsələn, Edqar Po nağıl nəzəriyyəsini, Hotorn romantik

tarixi povestlərin nəzəri-estetik əsaslarını yaratdı. Romantik tarixilik prinsipi bütün ədəbi janrlarda, o cümlədən poeziya və dramaturgiyada möhkəmləndi. Tarixi əsərlərdə süjet və mövzu tarixi fakt və dəlillərlə əsaslandırılsa da, hadisələrə əxlaqi və mənəvi cəhət prizmasından yanaşma, milli və ümumbəşəri dəyərlər, humanist meyarlar ilə qiymətləndirmək səciyyəvidir. Amerikanın ictimai və siyasi həyatında romantik sosial utopiya daha çox real gerçəklikdən çıxış edir və ictimai elmlərdə cəmiyyətin sosial fəlsəfi konturlarının, ideoloji hədəflərinin nəzəri örnəklərinin hazırlanması zərurətini ortaya qoyur.

Amerika romantizmi özündən sonra böyük mədəni, bədii, fəlsəfi zəmin qoyaraq tarixin parlaq səhifəsinə çevrildi.

Birinci fəslin *"Azərbaycanda romantizm cərəyanının formalaşmasının səciyyəvi xüsusiyyətləri"* adlanan ikinci yarımfəslində qeyd olunur ki, romantizm cərəyanı XX əsrin əvvəllərində Azərbaycanın sosio-mədəni fikrində özünəməxsus fəlsəfi, bədii ənənələr və yeni estetik prinsiplər yaratmışdır.

Ümumiyyətlə bəhs olunan dövrün ictimai-mədəni fikir tarixi və ədəbi proseslərində müxtəlif istiqamətlərdə inkişaf edən zəngin ideya cərəyanları mövcud olmuşdur. Bunlardan XX əsrin əvvəllərində ictimai-mədəni fikirdə dərin kök salmış, özünəməxsus bədii, fəlsəfi və estetik prinsiplərə malik, real gerçəkliyə və ictimai siyasi proseslərə spesifik münasibəti ilə seçilən islamçılıq, türkçülük, marksizm, liberalizm, maarifçilik meyillərini sadalamaq olar.

Azərbaycanda romantizm cərəyanı yarandığı dövrün xarakterinə uyğun olaraq yerli ictimai-siyasi mühit, milli psixologiyanın təsiri, ölkədə mövcud olan aktual problemlərin diktəsi ilə özünəməxsus estetik prinsiplər formalaşdırır, yeni cəmiyyətin ümummədəni səviyyəsindən irəli gələn ideyalarla çıxış edirdi. A.Səhhətin, M.Hadinin, Ə.Hüseynzadənin, H.Cavidin əsərlərində yeni hərəkatın ideya kredosu müəyyənləşir, vəzifə və məqsədlərini ifadə edən mətbuat formalaşırdı. Mətbuat milli gerçəkliyin güzgüsünə çevrilərək ədəbiyyatşünaslığın xəlqiliyinin təminatçısı kimi çıxış edir və bədii ədəbiyyatın problematikasını müəyyənləşdirirdi.

İstər Amerika, istərsə də Azərbaycanda romantizm cərəyanı tarixin keçid dövrlərində təşəkkül tapır və mövcud olduğu coğrafi məkanın sosial-ictimai həyatına fəal müdaxilə edərək real gerçəklik hadisələrindən nəşət tapan psixoloji əhval-ruhiyyəni əks etdirir. Romantiklər təəssübkeş vətəndaşlıq mövqeyi tutur və tarixi-milli

ənənələrə, mənəvi dəyərlərə yüksək qiymət verirlər. Onların ictimai-ədəbi görüşlərində tarixi soykökü, keçmiş mədəni ənənələri idealizə edən ideyalara tez-tez təsadüf edilir. Müstəqil dövlət, azad millət idealı Azərbaycan romantizminin milli ruhundan doğan utopik xəyalları ilə vəhdət təşkil edirdi. Milli romantizm öz nümayəndələrinin simasında siyasi düşüncəyə sirayət edir, Azərbaycan ziyalılarının ideya və fikirlərinə hopurdu. Nəhayət, Azərbaycan tarixinin ziddiyyətli olduğu qədər də şərəfli bir səhifəsini yaşamış romantizm cərəyanının nümayəndələri bütün Türk və Şərq aləmində ilk milli demokratik respublika olan Azərbaycan Demokratik Respublikasının milli simvol və rəmzlərini əsərlərində tərənnüm etmişdilər.

Birinci fəslin *"ABŞ və Azərbaycan romantizmində bədii xarakterlərin milli özünəməxsusluğu və oxşar cəhətləri"* adlanan yarımfəslində Amerika və Azərbaycan romantiklərinin yaradıcılığı əsasında milli xarakter və problemlər təhlil edilir. Qeyd olunur ki, romantik etiraz XIX əsrin iyirminci-əllinci illərinə aid Amerika ədəbiyyatının ən müxtəlif təsvirlərində, surətlərində və süjetlərində: İrvinqin xəzinə axtaranlarında, Kuperin dəri Corabının faciəli taleyində, Edqar Poda dəhşətə bürünmüş insan şüurunun tədqiqatında, ruhları puritan vicadanının zalım hakimiyyəti altına düşən Hotornun qəhrəmanlarında, zavallı Tom dayının qəmli hekayəsində, Uitterin quldarlığa qarşı ehtiraslı və əsəbi nitqlərində, Uoldenin Utopiyasında və s. təcəssüm olunmuşdur. Amerika romantiklərinin bədii xarakterlərində gerçəkliyə fəal münasibət göstərən, azad, fəlsəfi təfəkkürə malik, mənəvi cəhətdən zəngin ideal qəhrəman obrazları diqqəti cəlb edir.

Romantiklərə görə, cəmiyyətdə maddi tələbatların mənəvi dəyərləri üstələməsi, sözün böyük mənasında insanlığın itirilməsi qorxusu dini etiqadı zəruri tələbata çevirir. Hər bir fərd toplum yaşamaq, həyatın hər cür çətinliklərinə sinə gərmək üçün dini inanclarda vəd olunan ilahi ədalət, əbədi səadət və s. kimi humanist ideyalarla təsəlli tapır.

Qeyd etmək lazımdır ki, romantizm cərəyanında Allah və dini etiqad anlayışına münasibət birmənalı olmamışdır. Bir çox hallarda romantik ədəbiyyatda teizm və ateizm arasındakı həddi müəyyən etmək qeyri-müəyyən olur.

Cabbarlının «Od gəlini» əsərində Elxan dinin məhz siyasi əsaslarını, hakim dairələrin siyasi vasitə kimi dindən sui-istifadə etməsini tənqid atəşinə tutur. O sui-qəsdlər və imperialist maraqlarını din pərdəsinə bürüməyin əleyhinədir. «Qoy hər kəs özü öz yaşayışının tanrısı olsun. Artıq

yetməzmi? Din adına törətdiyiniz bu qədər qırğınlar, tökdüyünüz bu qədər qanlar yetməzmi? Neçin insanlığı bir-birindən ayırıb bir-birinə çeynədirsiniz?...» C.Cabbarlı insanların dinlərə parçalanmasının səbəbini qəhrəmanın simasında araşdırmağa cəhd edir.[5]

Cabbarlıda olduğu kimi, Melvill yaradıcılığında da dinə bu tip yanaşmalar sürəkli nəzərə çarpan məqamlardandır. Analoji olaraq Melvill insanın dinə bağlılığının köklərini araşdırmağa cəhd edir. "Mobi Dik"də "Allaha inan, özün isə yanılma" çağırışında müəllif insanın Allaha inamının qnoseoloji, psixoloji, ideoloji və sosial köklərinin fəlsəfi təhlilini personajlarının dili ilə onların həyat hekayətlərindən gətirilmiş nümunələrlə verməyə cəhd edir. Belə personajlardan olan, "Mobi Dik"in əsas qəhrəmanlarından biri, Bibliyanı demək olar ki, əzbər bilən, bütün vəziyyətlərə dair ondan sitatlar gətirən qoca dindar Vildada görə, "Din bir şeydir, bizim real dünyamız başqa şey. Real dünya dividendlər ödəyir." [6] Bibliyadan "İnam olan yerdə özünüzə qızıl yığmayın" kəlamını xatırladan xəsis qoca, bundan sonra dənizçilərə çox az qənimətə qane olmağı tövsiyə edir. Lakin bu kəlamı özünə şamil etmədiyi aydınlaşır.

Melvill heç bir ümmətin Allahına inanmayan, heç bir mənəviyyat qanunlarını tanımayan mənfi insan tipi kimi Ahav obrazının fərdi psixologiyasını araşdırır. Müəllif Ahav obrazının nümunəsində bir psixoloq, filosof kimi tədqiqatçı ustalığı ilə mənfi tiplərin daxili istəkləri, xarakterin mühitə təsiri və sair bu qəbildən olan tərəflərini real situasiyalar vasitəsilə açmağa nail olur. Ahav üçün digərləri onun məqsədini reallaşdırmağa kömək edə biləcək vasitədən başqa bir şey deyil.

H.Melvillin "Mobi Dik" romanında birbaşa balıq ovu süjet xətti olsa da, əsər sosial-psixoloji məzmun kəsb edir, fəlsəfi mahiyyət daşıyır. Əsərdə balinanın bioloji canlı kimi surəti öz hüdudlarını adlayır və insanı daim qorxu altında saxlayan təhlükə, daim onu izləyən mistik vahimə, bizi öz təhlükələri ilə narahat edən cəmiyyət kimi təsvir edilir. Melvill "Mobi Dik"də bu vəziyyəti qismən alleqorik şəkildə sətiraltı ifadələrlə şərh edirdi.

Ayrıca fərdin imkanlarını həddən artıq şişirtmək, onun rolunu mütləqləşdirmək romantizm fəlsəfəsində ideal şəxsiyyət tipi, romantik qəhrəmanlar yaratmaqla nəticələnirdi. Demək olar ki, bütün romantiklərin hər birinin yaradıcılığına onların fərdi "mən"ini, fikir və arzularını, fəlsəfi ideyalarını, psixoloji əhval-ruhiyyəsini, xəyallarını ifadə edən bir

---

[5] Cabbarlı Cəfər. Seçilmiş əsərləri: 4 cilddə, c. II. Bakı: Şərq-Qərb, 2005, s.13.
[6]http://www.google.az/urlMoby_Dick_NT.pdf&ei

qəhrəman obrazı səciyyəvidir. Cəmiyyətin ədalətsizliklərinə mənəvi qanunların prizmasından baxan romantik qəhrəman mənəvi keyfiyyətlərinə görə reallıqdan, gerçəklikdən çox-çox yüksəkdə dayanırdı. Romantik-lirik qəhrəmanlar məfkurə və ideyaca öz dövrlərini qabaqladıqları üçün özlərinə həmfikir, əqidə yoldaşı, onları başa düşən, qiymətləndirən insanlar tapmaqda çətinlik çəkirlər.

Yuxarıda sadalanan tipoloji təhlillər onu deməyə əsas verir ki, ABŞ və Azərbaycan romantiklərinin şəxsiyyətə dair fikir və mülahizələri romantizm ənənələrinə söykənsə də, özünəməxsusluğu və rəngarəngliyi ilə seçilir. Romantiklərin şəxsiyyət konsepsiyasında bədii xarakterlər milli, konkret tarixi spesifikaya malik olmaqla fərqlənsə də, irreal, mücərrəd və fəlsəfi mahiyyət kəsb etməklə romantizm ənənələri kontekstində uzlaşırlar. Bu baxımdan Amerika və Azərbaycan romantiklərinin bədii xarakterləri arasında fərqləndirici, ayırıcı xüsusiyyətlər ilə yanaşı, inteqrativ və ümumi cəhətlər də müşahidə edilir.

Dissertasiyanın ikinci fəsli *"Romantizmdə ideal həqiqət axtarışı: ümumi və fərqli cəhətlər"* adlanır və üç yarımfəsildən ibarətdir.

*"Herman Melvill romantizmində ideal və gerçəklik"* adlanan yarımfəsildə qeyd olunur ki, romantiklərin cəmiyyət idealı estetik-fəlsəfi səciyyə daşıyır. Romantik ictimai ideal harmoniyanın, gözəlliyin, ədalətin, mütləq azadlığın simvolu olan dünyadır. Bu dünya romantik sənətkarın arzuladığı, lakin nail ola bilmədiyi, ideal qəhrəmanı vasitəsi ilə daim can atdığı ülvi aləmdir.

Qeyd etmək lazımdır ki, Amerika ədəbiyyatında 40-50-ci illər dövrü utopik eksperimentlərin sınağı kimi səciyyələndirilir. Belə ki, icmalar, koloniyalar (məsələn, «Bruk Farm») mənəvi-əxlaqi özüllərə əsaslanan yeni tipli sosial-iqtisadi sistemin təzahürü idi.

Romantiklərin hər birinin əsərlərində real həyatda gözləmələrinin əksi olan ictimai quruluşa qarşı ideal, sosial utopiya formalaşır. Bu nöqteyi-nəzərdən Melvill XIX əsrin 30-40-cı illərində Amerikada mövcud siyasi, ictimai və mənəvi reallığa narazılığının bədii inikasını «Taypi»də ifadə etmişdi.

Melvill romantik sənətkarların arzu etdikləri, görmək istədiyi Amerika həyatının ideal obrazını sosial utopiyasının ifadəsi olan «Taypi» (Typee) əsərində ümumi cəhətlərini verə bilmişdi və ehtimal ki, əsərin müasirləri arasında doğurduğu əks-səda bununla bağlı idi. Melvillin sosial utopiyasının inikası kimi səciyyələndirilən «Taypi» povesti Polineziyanın Hannibal tayfalarına əsir düşmüş sadə bir dənizçinin dilindən nəql edilir.

Taypi vadisinin adət-ənənələri, sosial həyat tərzi, təbii gözəllikləri, zəngin təcrübələri və əhvalatları elə maraqlı və real cizgilərlə təsvir edilir ki, oxucu müasir sivilizasiyanın insanı cansıxıcı həyata və tənhalığa məhkum edən sosial mühitə qarşı qoyulmuş bu «cənnətin» mövcudluğuna inanmaya bilmir. Müəllif sosial utopiyasını əks etdirdiyi məkanda cərəyan edən hadisələri, nəql olunan əhvalatları israrla əsaslandırır.

Melvill Polineziyanın təbii həyat tərzini kultlaşdırarkən ideal cəmiyyəti sivilizasiyaya qarşı qoyurdu. Melvillin qənaətinə görə, sivilizasiya şəxsiyyətin təkcə mənəvi keyfiyyətlərinin aşınmasına səbəb olmaqla kifayətlənmir, o həm də insanın tədricən fiziki simasının itirilməsinin əsasına çevrilir. Romantik mütəfəkkirin fikrincə, sivilizasiyanın iki əsas şəri olan pul və mülkiyyətə yiyələnməyən Taypi azadlığından həzz ala bildiyi üçün xeyirxah və xoşbəxtdir. Melvill bunu demokratiyanın əsas atributu kimi dəyərləndirir. Romantik yazar barbar və sivil cəmiyyət arasındakı ziddiyyətləri yalnız tərəqqi, intellekt, sosial təşkilatlanmanın səviyyələri ilə müəyyənləşdirmir. Bu ziddiyyət həm də özünü anlayan insanın təbii vəziyyətinə münasibətində büruzə verir.

Bu fəslin ikinci yarımfəslində *«Cəfər Cabbarlı yaradıcılığında insan taleyi və müəllif «mən»inin ifadəsi»* araşdırılır. Bu yarımfəsildə müəllif mən-inin lirik-bədii romantik yaradıcılıqda qəhrəmanlarda təzahürü, mənəvi potensial və imkanların bədii yaradıcılıq vasitəsi ilə ifadəsi məsələlərinə diqqət yetirilir. Romantik yaradıcılıqda dövrün estetik idealı, ideolojı hədəfləri, fərdi və ictimai şüur səviyyəsi, sosial siyasi proseslərə münasibəti təzadlı məqamları ilə birgə lirik bədii qəhrəmanların simasında əks olunur, müəllifin dünyagörüşünə uyğun şəkildə öz həllini tapır.

C.Cabbarlının yaradıcılığında onun taleyini müşayiət etmiş üç müxtəlif (çar Rusiyası, milli müstəqillik və sovet imperiyası) tarixi dövrün siyasi, ictimai, mədəni təbədüllatları birbaşa və ya dolayı şəkildə müxtəlif səpgilərdə öz inikasını tapmışdır. Bədii əsərlərdə qəhrəmanların taleyi və əhval-ruhiyyəsinə nəzərən hər bir dövrün ictimai-mədəni mənzərəsi və bu mənzərənin yazıçının mənəvi dünyasına təsirini aydınlaşdırmaq mümkündür.

Əsasən yaradıcılığının realist məqamları tədqiq olunan C.Cabbarlının insan taleyinə baxışı bütövlükdə həssas, emosional və romantik mahiyyətə malik idi. Romantik sənətkarın lirik qəhrəmanına xas olan qiyamçı əhval-ruhiyyə, fərdi psixoloji hisslər gah taleyə, ilahi yaradana qarşı çevrilir, gah da ictimai-sosial xarakter kəsb edərək

nadanlara, ədalətsiz hakimlərə və mövcud sosial norma və qanunlara qarşı çıxır. Romantik qəhrəmanın əhvalına bədbinlik çökür və onun gələcəyə baxışında, yaradıcılığında inamsızlıq baş qaldırır.

Azərbaycan romantiklərindən Hüseyn Cavid, Məhəmməd Hadi və Cəfər Cabbarlı yaradıcılığında insan taleyi rəngarəngliyi, mürəkkəbliyi və fəlsəfi məqamların zənginliyi ilə diqqəti cəlb edir. Onların romantik qəhrəmanları yaşadıqları sosial gerçəklik və tale ilə mübarizələrində fəlsəfi münasibətləri və filosofluqları ilə seçilirlər. Hüseyn Cavidin bütün tarixi və lirik qəhrəmanları, Məhəmməd Hadinin lirik "mən"i, Cəfər Cabbarlının Aydın, Oqtay, Elxan, Gültəkin obrazları sosial gerçəkliyə müəlliflərin münasibətini əks etdirmə baxımından diqqətçəkəndirlər. Müəllifin özünüifadə aktı lirik ədəbi qəhrəmanda labüd olmasa da, gözləniləndir. Bu baxımdan romantik yazıçıların bədii qəhrəmanları keçirdikləri hisslərin təsviri baxımından nə qədər özünəməxsusdurlarsa, bir o qədər oxşar və ümumidirlər. C.Cabbarlının romantik arzularının ifadəçisi olan lirik "mən"i «öz xütbəsində oturub xəyalı ilə çuğlaşan» Hadi qəhrəmanlarından və onu qəbul etməyən kütləni tərk edərək göylərə pənah aparan Cavid qəhrəmanlarından fərqli olaraq daha dözümlüdürlər. Oqtay Eloğlu mübarizəsinin məramını təkidlə anladır: «Mən bir mübarizəm, cəbhəm bu! Yolum, görürəm, çox ağır. Fəqət mən bu dərin uçurumları keçəcək, keçilməz dağları, sıldırım qayaları çeynəyib parçalayacaq və bu keşməkeşlər arasında bir səhnə, yoxdan bir var yaradacağam. Mən dörd divar arasına alınmış bu rəngarəng həyatın tanrısı olacağam». [7]

Böyük ədibin yaradıcılığında lirik qəhrəmanın «mən» obrazı bütün əksər romantiklərdə olduğu kimi, müəllifin özü haqda bilikləri və özünə münasibətini ehtiva edir. Romantizmin şəxsiyyət konsepsiyasında mən obrazı «ideal mən», «real mən» və «sosial mən»in birlikdə istək və arzularını, bəzən əks qütblərin qarşıdurması və taleyüklü məsələlərdə vahidləşərək barışması ilə müşayiət olunaraq mürəkkəb, mücərrəd çalarlar kəsb etmiş olur. Romantik yaradıcılıqda şəxsiyyət tipləri müəlliflərin fərdi istək və arzularının ifadəçisi olub, müəllifin öz ideal "mən"ini bilavasitə və ya dolayı yolla inikas etdirir.

Dissertasiyanın ikinci fəslinin *"C.Cabbarlı və H.Melvill romantizmində şəxsiyyətin mənəvi və estetik təkamülü"* adlanan üçüncü yarımfəslində şəxsiyyətin mənəvi-etik təkamülü, idealı, mövcud gerçəkliyə münasibəti məsələlərinə diqqət yetirilir.

---

[7] Cabbarlı C. Seçilmiş əsərləri: 4 cilddə. c. II. Bakı: Şərq-Qərb, 2005, s. 249.

Romantik mütəfəkkirlər belə hesab edirdilər ki, cəmiyyəti təşkil edən ayrı-ayrı fərdlərin etik-estetik təkmilləşməsi, onların mükəmməl şəxsiyyət tipi kimi tərbiyəsi zəruridir. Cəmiyyəti kütlə məcmusu deyil, yüksək əxlaqa malik görkəmli şəxsiyyətlər irəli apara bilər. Bu nöqteyi-nəzərdən, şəxsiyyətin etik-estetik təkamülündə ziyalılar, yaradıcı şəxsiyyətlər, mənəvi elita məsuldur. Romantizm ənənələrinin davamı kimi Melvill və Cabbarlı yaradıcılıqlarında kamil və hərtərəfli insanı bəşər mədəniyyətinin irəliyə doğru inkişafının əsas təminatçısı hesab edirdilər.

Bir sıra ziddiyyətli cəhətlərinə baxmayaraq, Amerika və Azərbaycanda romantizm cərəyanı və onun görkəmli nümayəndələri olan Melvill və Cabbarlının şəxsiyyətə dair konseptual ideyaları, insanın hüquq və azadlıqları, vətəndaş cəmiyyəti və bu qəbildən olan bir sıra mülahizələri XX əsr ədəbi-mədəni fikir tarixinin inkişafına mühüm təsir göstərmişdir. Amerika və Azərbaycan tarixinin keçid dövrlərində intişar tapmış romantizm cərəyanı keçən əsrin əvvəllərindəki mədəni intibahın, azadlıq mücadiləsinin, ictimai-siyasi mübarizələrin, estetik ideallarının və mənəvi stimullarının yaranıb formalaşmasında müstəsna əhəmiyyətə malik olmuşdur.

Melvill və Cabbarlının şəxsiyyət konsepsiyası mükəmməlliyi və müasirliyi baxımından romantizm ədəbiyyatının ən böyük nailiyyətlərindəndir.

Dissertasiyanın *Nəticə* hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir və aparılmış araşdırmalara yekun vurulur. Tədqiqat nəticəsində əldə edilmiş qənaətlərə istinadən təklif və tövsiyələr verilir.

Dissertasiyanın əsas məzmunu müəlifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:


1. Herman Melvillin yaradıcılığı haqqında söz // Elmi xəbərlər. Bakı: Azərbaycan Dillər Universiteti, 2002, № 4, s. 189-191
2. Herman Melvillin "Mobi Dik və yaxud Ağ balina" romanının ontoloji səciyyəsi // Elmi xəbərlər. Bakı: Azərbaycan Dillər Universiteti, 2002, № 4, s. 225-228
3. Cəfər Cabbarlı yaradıcılığında insan taleyi və müəllif "mən"-inin ifadəsi Azərbaycanşünaslığın aktual problemləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş I Beynəlxalq elmi konfrans. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı: Bakı Slavyan Universiteti, 2010, s. 62-69
4. ABŞ romantizminin sosial, tarixi və bədii mühiti // Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı: 2010, № 1, s. 145-147
5. Azərbaycanda romantizm cərəyanının formalaşmasının səciyyəvi xüsusiyyətləri // "Qloballaşma şəraitində humanitar elmlərin aktual problemləri" mövzusunda keçirilmiş Respublika elmi-praktik konfransının materialları. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı: Bakı Avrasiya Universiteti, 2011, s. 302-303
6. Philosophical aspect of Herman Melville's romanticism. (Based on the novel "Moby Dick") // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: Bakı Slavyan Universiteti, 2012, № 1, s. 187-191
7. Cabbarlı və Melvill romantizmində şəxsiyyətin mənəvi və estetik təkamülü // Elmi Xəbərlər. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı: Azərbaycan Dillər Universiteti, 2012, № 1, s. 282-286
8. Об особенностях художественных характеров в романтизме США и Азербайджана // Науковий Вестник кафедри ЮНЕСКО Киевского Национального Лингвистичного Университету, вып. 25. Киев: 2012, с. 205-208
9. Психологические аспекты характера героев в произведениях американских и азербайджанских романтиков XIX-XX веков // Вектор науки, Тольяттинского Государственного Университета, серия педагогика и психология, № 2 (9), Тольятти: 2012, с. 25-27

10. Herman Melvill romantizmində ideal və gerçəklik // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: Slavyan Universiteti, 2013, № 3, s. 110-115.

Наиля Али гызы Асланова

# КОНЦЕПЦИЯ ЛИЧНОСТИ В АМЕРИКАНСКОМ И АЗЕРБАЙДЖАНСКОМ РОМАНТИЗМЕ
## (на основе творчества Германа Мелвилла и Джафара Джаббарлы)

## Резюме

Диссертационная работа состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении представлены актуальность, степень разработанности, объект и предмет, цель и задачи исследования, его научная новизна, методологическая основа, теоретическая и практическая значимость, гипотеза и методы исследования.

Основной целью работы является исследование концепции личности в американском и азербайджанском романтизме на основе творчества Г.Мелвилла и Дж.Джаббарлы.

Первая глава диссертации под названием «Американский и азербайджанский романтизм и формирующие их социально-политические условия» состоит из трех подглав и посвящается формированию американского романтизма, его специфическим особенностям. В этой главе также акцентируется внимание на формировании романтического течения в Азербайджане и проблемам его развития, в том числе проблеме героя в романтизме.

Во второй главе под названием «Поиск идеальной истины в романтизме: общие и отличительные черты» рассматриваются проблемы поиска идеальной истины в произведениях Г.Мелвилла и проблема человека в произведениях Дж.Джаббарлы. Эта глава также состоит из трех подглав. Они охватывают сравнение произведений Г.Мелвилла и Дж.Джаббарлы с точки зрения идеальной истины.

В заключении диссертации обобщены основные выводы проведенного исследования.

Naila Ali Aslanova

# CONCEPTION OF PERSONALITY IN THE AMERICAN AND AZERBAIJANI ROMANTICISM
(based on Herman Melville's and Jafar Jabbarly's works)

## Summary

The thesis on the topic "Conception of Personality in the American and Azerbaijani Romanticism (based on Herman Melville's and Jafar Jabbarly's works)" consists of the introduction, two chapters, the conclusion and the list of the used literature.

Urgency, degree of investigation of the topic, object and subject, the aims and purpose of research, its scientific novelty, methodology, theoretical and practical significance, hypothesis and research methods are presented in the introduction.

The objective of the thesis is to study the conception of personality in the American and the Azerbaijani Romanticism based on H.Melvill's and J.Jabbarly's works.

The first chapter of the thesis entitled "The American and the Azerbaijani Romanticism and the social-historical situation which formed them" is devoted to the formation of the American Romanticism and its specific features. Formation of the Azerbaijani Romanticism and its development problems are studied and great attention is paid to the hero problem in this chapter, too. This chapter also consists of three paragraphs. They embrace comparison of the works by H.Melville and J.Jabbarly from ideal justice point of view.

Problems of ideal and reality in H.Melvill's works and human problem in J.Jabbarly's works are studied in the second chapter of the thesis entitled "Seeking ideal justice in romanticism: common and special peculiarities".

The conclusion summarizes the basic results of the investigation.

Çapa imzalanıb: 15.01.2014
Format: 60x84 1/16. Tiraj: 100.  Sifariş № 26.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərкəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks  596 21 44
*e-mail: mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

НАИЛЯ АЛИ гызы АСЛАНОВА

# КОНЦЕПЦИЯ ЛИЧНОСТИ В АМЕРИКАНСКОМ И АЗЕРБАЙДЖАНСКОМ РОМАНТИЗМЕ
(на основе творчества Германа Мелвилла и Джафара Джаббарлы)

5718.01 – Мировая литература (английская литература)

АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по филологии

Баку – 2014